# "Molla Nəsrəddin" irsinə sevgi

**Görkəmli yazıçı-publisist Cəlil Məmmədquluzadənin Ev Muzeyində Azərbaycanda XX əsrin ən böyük mətbuat hadisəsi olan "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 119 illiyi sevgi-sayğı ilə yad edilib.**




Mərasim iştirakçıları ölməz ədibin irsini qoruyub təbliğ edən muzeyi ziyarət edərək, jurnalın nəşr tarixini və onunla bağlı tədqiqatları əks etdirən sərgi ilə tanış olublar.

Cəlil Məmmədquluzadə Ev Muzeyinin direktoru Aytən Ələkbərova bildirib ki, Şərqdə ilk satirik jurnal olan "Molla Nəsrəddin" jurnalı 25 ilə yaxın ictimai tərəqqi yolundakı maneələrə, düşmən qüvvələrin xəyanətlərinə qarşı barışmaz mübarizə aparıb. Ətrafında eyniadlı ədəbi-publisistik məktəb yaratmış bu jurnal milli ədəbiyyatın, mətbuatın, ictimai fikrin yüksəlişinə sanballı töhfələr verib.

Əməkdar müəllim İman Cəfərli "Azərbaycan ədəbiyyatı və jurnalistikasında "Molla Nəsrəddin" mərhələsi, Naxçıvan Dövlət Universitetinin dosenti Nəzakət İsmayılova "Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" mövzularında çıxış ediblər. Onlar demokratik jurnalistikamızın həmişəyaşar ənənələrinin formalaşıb inkişaf etməsində də "Molla Nəsrəddin"in önəmli payı olduğunu vurğulayıblar.

Mərasimdə Naxçıvan Dövlət Milli Dram Teatrının aktyoru Məmməd Mehdiyev "Ölülər" tamaşasından İsgəndərin monoloqunu ifa edib.

Xalq qəzeti.- 2025.- 9 aprel (№ 68).- S.11.